**Azərbaycan.** - 2024.- 21 iyul. - № 152. - S. 7.

# COP29 Akademiyasının iştirakçıları gənc iqlim fəallarıdır

**Züleyxa Əliyeva**

Bu gün iqlim dəyişikliyi ilə mübarizə təkcə hökumətlər və böyük şirkətlər tərəfindən deyil, həm də gənc nəsillər tərəfindən həyata keçirilir. Gənclərin iqlim müzakirələrində fəal iştirakı bu problemin həllində mühüm rol oynayır. Bu baxımdan, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi gənc fəallar və liderlər üçün qlobal iqlim siyasətinə töhfə vermək üçün mühüm platformadır.

Gənclərin belə qlobal tədbirdə fəal iştirak etməsinin böyük önəmi var. Sirr deyil ki, onlar iqlim dəyişikliyi ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialına malikdirlər. Gənclər COP-a yaradıcı yanaşmaqla ənənəvi metodlardan kənara çıxaraq daha effektiv strategiyaların hazırlanmasına kömək edə bilərlər. Beləliklə də səslərinin eşidilməsi və qlobal iqlim siyasətlərinə inteqrasiya etmək üçün mükəmməl fürsət qazanarlar.

Qlobal tədbirə hazırlıqlar çərçivəsində gənclərin fəallığı bu günlərdə qabarıq hiss olunur. Onlar vaxtaşırı toplaşaraq tədbirin keçiriləcəyi günlərdə görəcəkləri işləri müzakirə edir, planlar qurur, irəli sürdükləri təklif və təşəbbüslərini həyata keçirməyə çalışırlar. İndidən məlumdur ki, COP29-da bir çox gənc liderlər və fəallar müxtəlif panel və tədbirlərdə çıxış edəcək, üstəlik də yaşadıqları regionda iqlim təşəbbüslərini və uğur hekayələrini bölüşəcək, digər gəncləri bu istiqamətdə iş görməyə, təşəbbüs göstərməyə, təklif verməyə ruhlandıracaqlar. Gənclərin belə təşəbbüslərinə dəstək olmaq, eləcə də dəyər vermək üçün COP29 Akademiyası təsis olundu.

Məlumat üçün bildirək ki, COP29 Akademiyası mentorluq, peşəkar inkişaf və iş imkanları təklif edən genişmiqyaslı bir layihədir. Proqramın əsas məqsədi iştirakçıların iqlim dəyişmələri və dayanıqlılıq sahəsində yeni biliklərin əldə edilməsi, bu məlumatların həmyaşıdları və ailələri ilə paylaşılmasının təmin edilməsidir. Proqramın əsas hədəflərindən biri də davamlı inkişaf və öyrənmə mədəniyyətinin təşviqidir. Proqramda həmçinin liderlik, ünsiyyət, davamlı peşəkar inkişaf, layihələrin idarəolunması, öyrənmə mədəniyyəti və bu kimi digər vacib bacarıqların inkişafına yönəlmiş bir sıra təlim sessiyaları yer alıb. Akademiyanın iştirakçıları sahənin aparıcı peşəkar mütəxəssisləri tərəfindən dəstək, dəyərli biliklərə yiyələnmək və mühüm işgüzar əlaqələrin qurulması kimi imkanlar qazanacaq, eləcə də iki aylıq fəaliyyəti dövründə ekoloji maarifləndirmə və iqlim dəyişmələri ilə mübarizədə gənclərin fəal iştirakının təmin edilməsi, bu sahədə aktiv təcrübənin qazanılması, ölkədə irimiqyaslı və qlobal əhəmiyyətli tədbirlərin təşkili sahəsində peşəkarların yetişdirilməsi yönümündə iş aparılacaq.

COP29 Akademiyasının bu günlərdə keçirilən açılış mərasimində test və müsabiqələr nəticəsində 360 namizəd arasından COP29 Akademiyasına qəbul olunan 29 gəncin adı açıqlanıb. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək akademiyaya qəbul olunmuş gəncləri təbrik edib. Onlara iqlim dəyişmələri ilə mübarizə sahəsində bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb. Bildirib ki, iqlim dəyişmələri ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialı ilə gənclərin qlobal tədbirlərdə iştirakının böyük önəmi var.

Qeyd edək ki, akademiyanın iştirakçıları COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən işlə təmin olunaraq beynəlxalq konfransın təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb ediləcəklər. Onlar fərqli departamentlərdə mövcud tələblərə uyğun olaraq vəzifələrə təyin ediləcək və müvafiq əməkhaqqı alacaqlar. COP29 Akademiyası çərçivəsində həyata keçiriləcək təlimlər iyul-avqust aylarını əhatə edəcək. Akademiyada tədris prosesi sentyabr ayının əvvəlinə qədər davam edəcək və müxtəlif modullardan ibarət akademiyanın tədris proqramı çərçivəsində iştirakçılara mentorluq, davamlı peşəkar inkişaf üçün imkanlar təklif edilməklə onların layihələrin idarəedilməsi, peşəkar davranış kodeksi və s. kimi yumşaq bacarıqlara və dayanıqlılıq sahəsində biliklərə yiyələnməsinə şərait yaradılacaq.

COP29-a hazırlıqlar çərçivəsində görülən işlərin dinamizminə nəzər salanda hiss olunur ki, gənclər qlobal tədbirin iştirakçıları olmaqdan dolayı konfransa öz töhfələrini verməyə çalışırlar. Bir çox gənc liderlər və fəallar müxtəlif panel və tədbirlərdə çıxış etməyə hazırlaşırlar. Onlar indidən yaşadıqları regionda iqlim təşəbbüslərini və uğur hekayələrini bölüşür, digər gəncləri bu istiqamətdə iş görməyə, təşəbbüs göstərməyə, təklif verməyə ruhlandırırlar. Konfrans zamanı gənclər arasında şəbəkələşmə imkanlarının təmin ediləcəyini də əlavə etsək, gələcək əməkdaşlığın təməlinin qoyulacağına şübhə qalmır.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda "Gənc İqlim Elçiləri" adlı proqram da yaranıb. UNICEF-lə birlikidə Gənclər və İdman Nazirliyi proqrama dəstək verir. Bu proqramın iştirakçıları COP29

çərçivəsində gördüyü işlərlə fərqlənən savadlı, müasir düşüncəli, bu günün pəncərəsindən sabaha inamla baxan, elm, təhsil və innovasiyaların köməyi ilə gələcəyə açılan qapıdan içəri girən iqlim fəallarıdır.

Gənc İqlim Elçiləri və COP29 Akademiyasının iştirakçıları ekoloji sağlam cəmiyyətin yaradılması üçün ətraf mühitin mühafizəsi ilə bağlı görülən tədbirlərdə iştirak edərək "Yaşıl dünya naminə həmrəylik ili"ndə "yaşıl təşəbbüs"lərinin həyata keçirilməsində mövqe nümayiş etdirirlər. Ona görə də şübhə yox ki, ekoloji maarifləndirmənin gücləndirilməsində və ekologiyanın cəmiyyət tərəfindən sağlam həyat tərzinin bir hissəsi kimi qəbul edilməsində gənclərin rolu COP29-un keçiriləcəyi günlərdə daha bariz görünəcək.